## Əmanətləri SSRİ bankında qeydiyyata alınmayan şəxslərin problemləri həll oluna bilər

Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının ölkəmizin vətəndaşları olan əmanətçilərinin müraciətləri və fərdi birdəfəlik ödəmələrin verilməsi prosesi davam etdirilir. İyunun 1-dən başlayan bu proses ölkə başçısının «Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında» 14 mart 2012-ci il tarixli fərmanına uyğun olaraq aparılır. Müraciətlər 31 dekabr 2012-ci il tarixinədək davam edəcək və araşdırılması uzun zaman tələb etməyən bütün müraciətlər həmin tarixədək icra olunacaq. Ortaya çıxan problemli məsələlərin aydınlaşdırılması, araşdırmaların aparılması üçün isə əlavə 1 il müddət nəzərdə tutulmuşdur.

Müraciətlərin qəbulu və fərdi birdəfəlik ödəmələrin verilməsi məqsədilə «Kapital Bank» tərəfindən ümumilikdə 143 məntəqə yaradılmışdır ki, bunlardan 65-i Bakı şəhərində, 78-i respublikamızın digər regionlarında fəaliyyət göstərir. İtmiş, yaxud yararsız vəziyyətə düşmüş əmanət kitabçaları üzrə müraciətlərin qəbulu məqsədilə isə Bakıda 3, Naxçıvan, Gəncə və Sumqayıt şəhərlərinin hər birində 1 əlavə məntəqə təşkil edilmişdir. Digər rayon və şəhərlərdə bu qəbildən olan müraciətlər «Kapital Bank»ın yerli filiallarında qəbul olunur.

«Kapital Bank»ın İdarə Heyətinin sədr müavini, bankın Əmanətçilərə Birdəfəlik Ödəmələrin Verilməsi Mərkəzinin direktoru Araz Əliyev mətbuat konfransında bildirib ki, proses başlanıldığı gündən 4 ay müddətində «Kapital Bank»a fərdi birdəfəlik ödəmələrin verilməsi üçün bankın xidmət məntəqələrinə 1,151 milyondan artıq müraciət daxil olub. Bu müddət ərzində 1 milyon 32 min 909 əmanətçiyə 419.572 milyon manat vəsait ödənilib. Onun sözlərinə görə, müxtəlif səbəblərdən 71267 müraciətin icrasından imtina edilib, 38752 müraciətə isə baxılmaqdadır.

Bankın rəsmisi bildirib ki, oktyabrın 1-dən Azərbaycanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər, eləcə də bankın Naxçıvan Muxtar Respublikasında yerləşən filiallarında əmanətləri qalan şəxslər üçün «Kapital Bank»ın Bakının Xaqani küçəsində yerləşən 144 saylı məntəqəsi də fəaliyyətə başlayıb. Bu ərazilərdən olan əmanətçilər fərdi birdəfəlik ödənişləri almaq üçün bankın həmin məntəqəsinə müraciət edə bilərlər. Müraciətdən sonra əmanətlərin verilməsi müddətinə toxunan A.Əliyev qeyd edib ki, məlumatların üzləşdirilməsi zamanı uyğunsuzluq aşkarlanarsa, bu zaman müraciətin icrası yubana bilər. Əks halda isə icra müddəti bir gün təşkil edir.

Əmanətlərin qaytarılması zamanı bəzi nöqsanların olduğunu deyən A.Əliyev bildirib ki, bankın korporativ normalarını pozan 3 yerli struktur bölmə rəhbəri, 2 baş mühasib və 5 digər işçi işdən azad olunub, 7 əməkdaşa töhmət verilib, 18 işçiyə isə xəbərdarlıq edilib.

Mərkəz direktoru onu da qeyd edib ki, 1990-1991-ci illərdə öz hesablarını bankın bir filialından digərinə köçürmüş və 1992-ci il yanvarın 1-i üzrə əmanətləri Azərbaycan SSR Əmanət Bankının heç bir filialında qeydiyyata alınmayan şəxslərin problemlərinin həlli üzrə də işlər aparılır. «Hazırda arxivlərdəki sənədlər öyrənilir və gələcəkdə bu şəxslərə ödənişlərin həyata keçirilməsi mümkün ola bilər».

Ümumilikdə isə birdəfəlik fərdi ödənişlərin verilməsi prosesinin gedişini normal qiymətləndirdiyini deyən A.Əliyev prosesin vaxtından əvvəl başa çata biləcəyinin mümkün olduğunu bildirib.

Yeri gəlmişkən, maliyyə naziri Samir Şərifov da bir müddət öncə mətbuata açıqlamasında əmanətçilərə birdəfəlik fərdi əmanətlərin verilməsi prosesinin qrafiki qabaqladığını və prosesin gözlənildiyindən də sürətlə getdiyini bildirmişdi.

AYTƏN